Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili-Azərbaycan dövlətçiliyi müasir mərhələdə**

# Orta məktəblərdə ayrıca "Qarabağ tarixi" fənni - dövlətçilik tariximizdə yeni mərhələ...

**Azərbaycanın əzəli ərazisi, ayrılmaz hissəsi olan, BMT tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyü daxilində tanınan Qarabağın tarixinin ayrıca öyrənilməsi və tədrisi, təbliği böyük bir zərurətə çevirilmişdi. Düzdür, bu ideya gündəmə gələndə buna qarşı çıxanlar da olmuşdu, amma çoxluq tarixi torpağımız, Respublikamızın bir parçası olan Qarabağın tarixinin xüsusi şəkildə orta məktəblərdə tədrisinə səs verib.**

Nəhayət qərara gəlinib ki, "Qarabağ tarixi" fənni fakultativ formada tədris olunsun. Bizim orta məktəblərdə "Qarabağ tarixi" adlı ayrıca fənn olaraq şagirdlərə öyrədilir. Bütövlükdə, bu fənnin tədrisi Qarabağın tarixinin öyrənilməsi, təbliği baxımından əhəmiyyəti böyükdür.

**"Bizim şagirdlər Qarabağın tarixini dərinliyinə qədər bilməlidir"**

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Qafqazşünaslıq İnstitutunun şöbə müdiri Qasım Hacıyev bizimlə söhbətində bildirdi ki, orta ümumtəhsil məktəblərində "Qarabağ tarixi"nin ayrıca, yaxud fakültətiv bir fənn kimi keçilməsi olduqca əhəmiyyətli bir məsələdir. Q.Hacıyev qeyd etdi ki, qədim türk yurdu, Azərbaycanın ayrılmaz parçası olan Qarabağın tarixinin şagirdlərə öyrədilməsi zəruri idi və bu zərurətdən irəli gələrək də öyrədilir, tədris edilir: "Bu qədim və müasir dövlətçilik tariximizin təbliği ilə bağlı olduqca maraqlı bir məsələdir. Birinci Qarabağ müharibəsində ərazilərimizin 20 faizi işğal olunmuşdu, o cümlədən də Qarabağın çox hissəsi işğal altına düşmüşdü. Bilirsiz ki, işğal dövründə Ermənistan Qarabağ ərazisini söküb, dağıdıb, tarixi mədəniyyət, memarlıq, təbiət abidələrimizi və sair yerlə yeksan edib, onları bərpa etmək olduqca çətin işdir. İşğal dövründə eyni zamanda ermənilərin çox geniş şəkildə anti-Azərbaycan təbliğatı da başladı. Ermənilər dünyaya "sübut" etmək istəyirdilər ki, o əraziləri "işğal etməyiblər", Qarabağ erməniləri "ayağa qalxıb "öz torpaqlar"ını birdəfəlik Azərbaycandan qoparmaq üçün "üsyan" ediblər. Ermənilər o dövrdə Qarabağın Ermənistan tərəfindən işğalına müxtəlif adlar qoyur, donlar geydirməyə cəhdlər edirdilər. Bununla da bütün dünya ictimaiyyətini aldatmağa çalışdılar. Bir çox hallarda ermənilərin miflərinə, nağıllarına inananlar da olurdu. Biz də o illər ərzində bu təbliğata qarşı mübarizə aparırdıq və Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu və Ermənistan tərəfindən işğal edildiyini yazırdıq, bildirirdik. Bizim şagirdlər Qarabağın tarixini dərinliyinə qədər bilməlidir..."



**"Qarabağ tarixi" dərsliyi meydana necə çıxdı?**

Q.Hacıyev deyir ki, müstəqillikdən sonra kim istəyirdi Qarabağa aid kitab yazıb onu çap edirdi, hətta bu prosesə yüksək vəzifəli şəxslər də qoşulmuşdu. Q.Hacıyevin sözlərinə görə, Qarabağ haqqında o qədər kitablar yazılıb ki, adam mətəl qalır, amma bu kitabların içində keyfiyyətli, əhəmiyyətli olanları azdır. "Qarabağ haqqında o qədər kitablar yazıldı ki...Kimin əlinə qələm keçirdisə Qarabağdan yazırdı. Mən də Qarabağ tarixini öyrənən, tədqiq edən bir tarixçi kimi illərdir topldığım materiallar əsasında Qarabağ tarixinə aid bir kitab yazdım. "Qarabağ tarixi" adı ilə bakalavr və magistrlər üçün dərslik hazırladım. Açığını deyim ki, dövlətdən kifayət qədər mənfəət əldə edən, danışanda vətənpərvərlikdən danışan universitet rektorları "Qarabağ tarixi"ni kitab şəkilində çap etmədilər. Bir sözlə, heç kəs bu kitabın nəşrinə kömək etmək istəmədi, illərlə gözlədim. Amma əsas odur ki, mən o dərsliyi yazdım. Bu dərslik necə meydana gəldi? Mən o dövrdə qaçqın və köçkünlərin məskunlaşdıqları yerlərə çox gedirdim. Xüsusən də Goranboy rayonunda yerləşdirlən Xocalıdan olan qaçqınlarla görüşürdüm, təshil şöbəsində olmuşdum. Xocalıdan olan müəllimlər məndən xahiş edirdilər ki, Qarabağ tarixinə aid bir kitab yazın, biz Qarabağ həqiqətlərini şagirdlərə öyrədək. Deyirdilər ki, doğru-düzgün tədris materalı tapa bilmirlər. Sonra gözlədiyim halda Əyyub Əbdüləzimov adlı bir şuşalı müəllim mənə müraciət etdi ki, Təhsil Nazirliyində Qarabağ tarixinə aid dərsliyin, dərs vəsaitinin hazırlanması ilə bağlı məsələ qaldırılıb. Təhsil Nazirliyinə getdik və müzakirə apardıq, fikirlərimiz üst-üstə düşdü. Əbdüləzimovla birlikdə o dərsliyi hazırladıq. Mən bakalavr və magistrlər üçün yazdığım kitabı özüm çap etdirdim. Amma orta məktəblər üçün "Qarabağ tarixi" nazirlik tərəfindən nəfis şəkildə çap olundu. Bu dərslik orta ümumtəhsil məktəblərinin VIII siniflərində tədris edilir. "Qarabağ tarixi"nin əhəmiyyətini, səviyyəsini qiymətləndirib növbəti il onu dərs vəsaiti kimi yox, dərslik kimi çap etməyi nəzərdə tutdular. Beləliklə 90 min nüsxəlik kitab bir az da təkmilləşdirildikdən sonra yenidən 130 min nüsxə ilə çap olundu. "Qarabağ tarixi"nin 30 min nüsxəsi isə Azərbaycan məktəblərin rus bölmələri üçün ayrıca nəşr edilib şagirdlərin ixtiyarına verildi. Kitabın keyfiyyətinə gəlincə, biz əvvəl də, müharibə vaxtı da Xocalıdan və Qarabağın digər rayonlarından olan müəllimlərlə söhbətlər edirdik. Onlar bu dərsliyin faydasını yüksək dəyərləndirirdi və deyirdilər ki, "Qarabağ tarixi" həqiqətən də uşaq və gənclərin vətənpərvərlik tərbiyəsinin yüksəlməsində mühüm rol oynayır.

Bu dərsliyi yazıb tədrisə buraxmaqda məqsədimiz nə idi? Məqsədimiz o idi ki, Azərbaycan uşaqları, gəncləri Qarabağı yaxşı tanısınlar, Qarabağın həqiqətən də Azərbaycana məxsus olduğunu bilsin və bunu şüuruna yeritsin. "Qarabağ tarixi" o qədər zəngin materialdır ki, hər mövzu qısa, lakonik və məzmunlu şəkildə əks olunub. Onu oxuyanda Qarabağın Azərbaycana məxsus olduğuna heç bir şübhə yeri qalmır. "Qarabağ tarixi" vasitəsilə erməni yalanları ifşa olundu, Azərbaycan uşaqlarında vətənpərvərlik hissi daha da böyüdü, o ərazilərin təbii şəraitinə aid çox unikal şəkillər təqdim etdik şagirdlərimizə..."

Bu dərslik vasitəsilə şagirdlərə Qarabağ təbiətinin də öyrədildiyini deyən Q.Hacıyevin sözlərinə görə, indən sonra uşaq və gənclərimiz Qarabağ tarixini daha dərindən öyrənməlidir.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**